

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 146 (23.308)

7 avqust 2019-cu il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Qızıl və gümüş medalların təqdimatı olub



*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində 2018-2019-cu tədris ilində məktəbi xüsusi nailiyyətlərlə başa vuran məzunlara qızıl və gümüş medalların təqdimatı keçirilib.*

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov qızıl və gümüş medallarla təltif olunan məzunları təbrik edərək muxtar respublikamızda təhsilin inkişafı istiqamətində görülən işlərdən, yaradılan şəraitdən danışıb. Bildirib ki, muxtar respublikamızda bütün sahələr kimi, təhsil də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə əhatə olunub. Bunun nəticəsidir ki, ötən dövr ərzində 200-dən çox təhsil müəssisəsi istifadəyə verilib, onların maddi-texniki bazası möhkəmləndirilib, məktəblər ən müasir informasiya texnologiyaları, o cümlədən kompüter və elektron lövhələr ilə təchiz olunub.

Muxtar respublikada elektron təhsilin tətbiqi, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılması, tədrisin əyaniliyi və səmərəliliyinin artırılması da diqqətdə saxlanılıb. Bunun nəticəsidir ki, 2018-2019-cu tədris ili üzrə məzunların 281-i imtahanlarda daha yüksək nəticə göstərərək 500-700 arası bal toplayıb.

Vurğulanıb ki, bu il muxtar respublikanın ümumtəhsil məktəblərini bitirən məzunlardan 13-ü qızıl, 16-sı gümüş medala, 45-i isə fərqlənmə attestatına layiq görülüb. Həmin məzunlar onlara göstərilən etimadı doğruldub. Belə ki, ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında qızıl medala layiq görülən məzunların hamısı 600-dən yuxarı, gümüş medala layiq görülən məzunlar isə 500-700 arası bal toplayıblar. Həmin məzunlar tədris müddəti keçirilən fənn olimpiadalarında da yüksək nəticələr əldə edib, qızıl medala layiq görülənlərdən 9-u, gümüş medala layiq görülənlərdən isə 5-i respublika fənn olimpiadasının qalibi olub.

Təqdimat mərasimində Babək Rayon Təhsil Şöbəsinin müdiri Həsən Zeynalov və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin məzunu Daşqın Xudiyev çıxış edərək yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Sonra ümumtəhsil məktəblərini xüsusi nailiyyətlərlə bitirən məzunlara medallar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Torpaqların su təminatı yaxşılaşdırılır

*Muxtar respublikada meliorasiya və irriqasiya sistemlərinin yenidən qurulması sahəsində tədbirlər davam etdirilir.*



İyul ayında əkin sahələrinin suvarma suyu ilə təmin olunması, torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın rayonlarında 8 kilometr beton və torpaq kanal, 22 kilometr ara arxlar, 4 kilometr kollektor lildən təmizlənmiş, 7 kilometr yeni suvarma boru xətti çəkilmiş, 48 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır.

Muxtar respublika üzrə ötən ay su istifadəçilərinə 33 milyon kubmetr su verilmiş, bunun müqabilində 28 min 233 hektar torpaq sahəsi suvarılmış, torpaq sahələrini sel sularının zərərli təsirindən qorumaq üçün çay və selovlarda selə qarşı 760 metr istiqamətləndirici bənd salınmışdır. Kəngərli rayonunun Yurdçu kəndində 76, Şahbuz rayonunun Türkeş kəndində 300 hektar ərazidə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, 6,6 kilometr suvarma xətti çəkilmişdir.

"Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində işlər davam etdirilmiş, Şərur rayonunun Zeyvə və Düdəngə kəndlərində 8273 metr, Babək rayonunun Babək qəsəbəsində 330 metr içməli su xətti çəkilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

## Ötən ay 1519 daşınmaz əmlak obyekti plana alınıb

*Muxtar respublikada torpaq istifadəçiliyi sahəsində aşkar olunmuş qanun pozuntularının aradan qaldırılması, mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması və elektron kadastr məlumat bazasının təkmilləşdirilməsi iyul ayında da diqqətdə saxlanılmışdır.*

Ötən ay 22 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə götürülmüş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

Kəngərli rayonunda daşınmaz əmlak obyektlərinin plana alınması başa çatdırılmış, Şahbuz rayonunda planaalma işlərinə başlanılmışdır. Ay ərzində 1519 daşınmaz əmlak obyekti plana alınmışdır. Şahbuz rayonunda torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilmişdir. Şahbuz rayonunun Ağbulaq, Gömür və Biçənək bələdiyyələrinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmış və torpaqların növləri üzrə uçotu aparılmışdır. Babək rayonunun Məzrə və Zeynəddin kəndlərində keçirilmiş monitorinqlər nəticəsində aşkar olunmuş torpaqlardan qanunsuz istifadə faktlarının aradan qaldırılması istiqamətində işlər davam etdirilmişdir.

İyul ayında 525 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınmış, 408 texniki sənəd hazırlanmış, yeni yaranmış 75 daşınmaz əmlak obyektinə ünvan verilmişdir. Komitənin səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 8 yaşayış məntəqəsində 58 vətəndaşın müraciətinə baxılmış, 61 vətəndaşa elektron xidmətlər göstərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Muxtar respublikamızda sahibkarlığın inkişafına dövlət tərəfindən sistemli dəstək tədbirlərinin göstərilməsi, aparılan məqsədyönlü siyasət nəticəsində diyarımızda ümumrespublika və beynəlxalq əhəmiyyətli layihələrdə uğurla iştirak edən, iqtisadiyyatın inkişafına töhfə verən güclü sahibkarlar təbəqəsi formalaşıb.*

## İnvestisiya qoyuluşuna dövlət dəstəyi artırılır



Həyata keçirilən iqtisadi siyasətin prioritet istiqaməti kimi ölkəmizdə və regionumuzda əlverişli biznes və investisiya mühiti yaradılıb. Qanunvericiliyin təkmilləşdirilməsi, şəffaf inzibati tənzimləmə, dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi, sahibkarların hüquqlarının və qanuni mənafelərinin etibarlı müdafiəsi təmin edilib, iqtisadiyyatın aparıcı qüvvəsi olan sahibkarlığın inkişafının dəstəklənməsi diqqətdə saxlanılıb. Sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci ilədək dayandırılıb, lisenziya tələb olunan fəaliyyət növlərinin və icazələrin sayı əhəmiyyətli dərəcədə azaldılıb, prosedurlar sadələşdirilib. Bununla yanaşı, investisiyaların və ixracın təşviqi mexanizmləri tətbiq olunur, yerli istehsalın dəstəklənməsi üçün kompleks və ardıcıl tədbirlər həyata keçirilir, dövlət satınalmalarında yerli istehsala üstünlük verilir.

Ölkəmizə investorların cəlb edilməsi və investisiya mühitinin daha da yaxşılaşdırılması məqsədilə reallaşdırılan iqtisadi siyasətin əsası kimi "bir pəncərə" sistemi, valyuta tənzimlənməsi sahəsi, daşınmaz əmlakın qeydiyyata alınması prosesi, vergitutma sahəsi, gömrük rejimi və lisenziyalaşdırma fəaliyyətlərinin həyata keçirilməsi zamanı güzəştləri göstərmək olar. Bir çox sahədə xarici investorlara əlavə hüquqi təminatlar yaratmaqla yanaşı, yerli sahibkarlıq subyektlərinin də investor qismində çıxış etməsi və xaricə kapital axınının qarşısının alınması məqsədilə investisiya fəaliyyətində güzəştlər tətbiq edərək stimullaşdırıcı tədbirlər görülüb.

Azərbaycan Respublikası Prezidentinin "İnvestisiya təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 18 yanvar tarixli Fərmanı ilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" təsdiqlənib. Bu sənədin verilməsində əsas məqsəd investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, yerli istehsalın artırılması və investisiyaların təşviqi ilə bağlı mexanizmin təkmilləşdirilməsidir.

"Naxçıvan Muxtar Respublikasında İnvestisiyaların Təşviqi ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 21 yanvar tarixli Fərmanı ilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" təsdiq edilib. Ötən müddət ərzində muxtar respublikamızda rəqabətqabiliyyətli məhsul istehsalı və ixrac potensialının artırılması məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən 6 sahibkarlıq subyektinə 7 layihə üzrə investisiya qoyuluşunu nəzərdə tutan investisiya təşviqi sənədi verilib.

Müasir dövrdə davamlı inkişafın təmin edilməsində əhalinin sağlamlığı, yüksək həyat şəraitinin təmin edilməsi, düzgün məşğulluq siyasətinin həyata keçirilməsi nəticəsində yoxsulluq və işsizlik səviyyəsinin minimuma endirilməsi vacib məsələlərdən hesab olunur. Bazar iqtisadiyyatında məşğulluğun tənzimlənməsi səmərəli iqtisadi fəaliyyətin nizamlanmasına mühüm təsir etməklə yanaşı, həm də daim artan ehtiyacların ödənilməsi baxımından əhəmiyyət kəsb edir. Ona görə də müasir iqtisadi şəraitdə dövlətimizin makroiqtisadi siyasətinin əsas hədəflərindən biri əməkqabiliyyətli əhalinin məşğulluğunu yüksək səviyyədə təmin etməkdən ibarətdir. Qeyd edək ki, muxtar respublikada ötən müddət ərzində investisiya layihələrinin reallaşdırılması nəticəsində 7 layihə üzrə 157 yeni iş yeri açılıb.

Bütün yuxarıda sadalananlar regionda investisiya fəaliyyətinin genişləndirilməsinin, biznes mühitinin yaxşılaşdırılmasının, sənaye istehsalının artırılmasının daim diqqətdə saxlanılmasından xəbər verir. Bununla bağlı qarşıya qoyulan əsas hədəflər isə sahibkarlar tərəfindən yerli resurslara əsaslanan müəssisələrin yaradılması və ixrac potensialının gücləndirilməsi layihələrinin həyata keçirilməsidir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## İcbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər uğurla həyata keçirilir

*Dünən Kəngərli rayonunda "İcbari tibbi sığortanın tətbiqi ilə bağlı tibb işçiləri üçün hesabatların təqdimedilmə forması, kliniki protokollara uyğun tibbi xidmətlərin təşkili, icbari tibbi sığortanın maliyyələşmə formaları" mövzusunda növbəti maarifləndirici tədbir keçirilib.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Kəngərli rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 5 iyul tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası çərçivəsində keçirilən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İcbari tibbi sığorta işinin təşkili şöbəsinin müdiri Vüsal Məmmədov açıb. O, muxtar respublikada əhaliyə keyfiyyətli tibbi xidmətlərin həyata keçirilməsinin stimullaşdırılması, səhiyyə sahəsində dayanıqlı maliyyə mənbələrinin formalaşdırılması və icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi istiqamətində görülən işlərdən danışıb. Diqqətə çatdırıb ki, agentlik sığortaolunanlara baza zərfinə əsasən xidmət göstərir. Baza zərfinə 18 ilkin səhiyyə, 5 təcili və təxirəsalınmaz, 471 ambulator, 285 laborator müayinə, 23 fizioterapevtik, 600 stasionar və 123 həyativacib olmaqla, ümumilikdə, 1525 tibbi xidmət daxil edilib.

Qeyd olunub ki, müvafiq sərəncama uyğun olaraq avqust ayının 1-dən Kəngərli rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılıb.

Bildirilib ki, bu məqsədlə agentlik tərəfindən ilkin tədbirlərin icrası həyata keçirilib, rayon əhalisi üzrə məlumatlar toplanılıb. Həmin məlumatlar əsasında icbari tibbi sığortaya cəlb olunacaq əhali, tibb müəssisələri və tibb işçilərinə dair mərkəzləşdirilmiş məlumat bazaları və digər zəruri proqram təminatları, eləcə də reyestrlər yaradılıb.

Sonra agentliyin İcbari tibbi sığorta işinin təşkili şöbəsinin aparıcı məsləhətçisi Təranə Babayeva sığortaolunanın tibb müəssisəsi tərəfindən necə qəbul edilməsi və qeydiyyatının aparılması, icbari tibbi sığortanın prinsip və məqsədləri haqqında məlumat verib.

Agentliyin Səhiyyə və sosial iqtisadi təhlil şöbəsinin baş məsləhətçisi Nazəni Rüstəmli aylıq hesabatların tərtib və təqdimolunma qaydaları, agentlik əməkdaşları ilə xəstəxana işçilərinin qarşılıqlı iş prinsipləri və icbari tibbi sığortada klinik protokollara uyğun tibbi xidmətlərin təşkili barədə, Maliyyə və təsərrüfat sektorunun müdiri Nicat Əsgərov "İcbari tibbi sığortanın maliyyələşmə formaları və nümunəvi hesabat formalarının təqdim edilməsi" mövzusunda slaydlar vasitəsilə məlumat veriblər.

Tədbirdə iştirakçıların sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi***

# Qədim diyarın elm məbədgahı

*Elm tarixi həm humanitar, həm təbiət, həm də ictimai və dəqiq elmlər daxil olmaqla, elmi məlumat və elmi inkişafın araşdırılmasıdır. Elm gerçək dünyadakı hadisələrin müşahidə edilərək uzaqgörənliklə təhlil və proqnozunun verilməsi, elm adamları tərəfindən öyrənilən təcrübi, nəzəri və praktik məlumatların toplusudur. Bu ali peşə ilə məşğul olan elm cəngavərləri bütün ömürlərini kitaba, biliyə, texnologiyaya, insanı, təbiəti, ən müxtəlif elm sahələrini öyrənməyə həsr edirlər.*



Naxçıvan Muxtar Respublikasında da bu ali yolda irəliləyən, elmin ziyası altında toplaşan insanlar çoxdur. Özümün də əməkdaşı olduğum və bundan qürur duyduğum Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi haqqında danışmaq istəyirəm.

Qeyd edim ki, bölmə ümummilli liderimiz Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsi haqqında" Sərəncamına müvafiq olaraq yaradılıb.

Bölmənin yaradılması zəruriliyindən bəhs edən ümummilli lider Heydər Əliyev deyib: ***"Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin... hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, tarixi abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də, düz olaraq deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var".***

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təşkil edilməsi haqqında" 2002-ci il 26 avqust tarixli Qərarına əsasən bölmə tərkibindəki institutlar Naxçıvan Regional Elm Mərkəzi, Naxçıvan Elmi-Tədqiqat Bazası və Şamaxı Astrofizika Rəsədxanasının Batabat və Ağdərə stansiyalarından təşkil olunub.

Sərəncama müvafiq olaraq bölmədə 6 elmi-tədqiqat institutu – Tarix, Etnoqrafiya və Arxeologiya, eləcə də İncəsənət, Dil və Ədəbiyyat, Təbii Ehtiyatlar, Bioresurslar institutları, Batabat Astrofizika Rəsədxanası və Əlyazmalar Fondu yaradılıb.

Gərgin elmi fəaliyyətin həyata keçirildiyi bu institutlarda yaşlı nəsillə çiyin-çiyinə gənc alimlər, mütəxəssislər də çalışırlar. Bu elm ocağında müxtəlif ixtisas sahibi olan alim və tədqiqatçılar ömürlərini aid olduqları elmi istiqamətin inkişafına dair nəzəriyyələrə, yeniliklərə həsr edirlər. Xatırlayıram ki, mən orada işə başladığım zaman çox gənc olsam da, bir çox tədqiqatlar aparmaq arzusunda idim. Bölmədə bu hədəfimə gedən yolda mənə stimul olacaq çox şeyin mövcudluğunu gördüm. Rahat, sakit iş şəraiti, son model texnologiya ilə təchiz olunmuş otaqlar, zəngin kitabxana…

Doğrudan da, illər keçdikcə dərk edirəm ki, çalışdığım qurumda elmə, biliyə, gənclərə göstərilən böyük dövlət qayğısının mühüm rolu var. Gənclərə göstərilən bu qayğıdan bəhrələnərək Azərbaycan elmini dünyaya inteqrasiya edəcək bir çox tədqiqatçının yetişdiyini görürəm.

Ölkəmizdə ictimai-siyasi həyatın, iqtisadiyyatın, mədəniyyətin, texnologiyanın bütün istiqamətlərində nəhəng quruculuq işləri gedir. Milli özünüdərk və özünütəsdiq istiqamətində gedən bu böyük proses elm və təhsil sahələrindən də yan keçməyib. Bu inkişafın trayektoriyasında daim qabaqcıl müvəffəqiyyətlərin məkanı olan Naxçıvan elm sahəsində də bir çox yeniliklərə imza atıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Naxçıvan", bölmənin "Xəbərlər" və "Axtarışlar" jurnalları, Naxçıvan Dövlət Universitetinin və "Naxçıvan" Universitetinin "Elmi əsərlər"i, Naxçıvan Müəllimlər İnstitutunun "Xəbərlər" jurnalı həm beynəlxalq kod alıb, həm də Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qəbul etdiyi dövri nəşrlər siyahısına daxil edilib.

2019-cu ildə alimlərimizin uğurlu tədqiqatları fundamental elmi nəşrlərlə davam etdirilir. "Ölkədə elmin regional inkişafının bu mühüm istiqamətinin, ilk növbədə, blokada şəraitində olan Naxçıvanda həyata keçirilməsinin həm də dövlətçiliyimizin, ərazi bütövlüyümüzün möhkəmləndirilməsi baxımından da müstəsna əhəmiyyəti vardır", – deyən bölmənin sədri, akademik İsmayıl Hacıyev bizimlə söhbətində vurğulayır ki, Naxçıvanda elmin inkişafı ilə bağlı əhəmiyyətli tədbirlər, layihələr və təkliflərin həyata keçirilməsi, xüsusilə də gənc alimlərin yetişməsi, inkişafı ilə əlaqədar əhəmiyyətli işlər görməkdədir.

Muxtar respublikada son illərdə təhsilin davamlı inkişafını təmin edən sərəncamların imzalanması, güclü təhsil infrastrukturunun, maddi-texniki bazanın yaradılması yüksəkixtisaslı kadr hazırlığı işinin yeni müstəvidə aparılması, elmin istehsalata tətbiqi, yeni startaplara start verilməsi kimi əhəmiyyətli innovativ tədbirlər silsiləsi Naxçıvanımızda elmin inkişafına münbit və güclü şərait yaradır.

2003-cü ilin yanvarında 139, o cümlədən 51 elmi işçi ilə fəaliyyətə başlayan AMEA Naxçıvan Bölməsi bu gün 259 əməkdaşla (bunlardan 98-i elmi işçidir) fəaliyyətini davam etdirir. Bölmə əməkdaşlarının 2 nəfəri AMEA-nın həqiqi, 4 nəfəri isə müxbir üzvü, 6 elmlər doktoru, 55 fəlsəfə doktoru olaraq fəaliyyət göstərir ki, bu da elmi işçilərin 68,4 faizini təşkil edir. Əməkdaşlardan 6 nəfər professor, 40 nəfər dosent elmi adını alıb. Bölmə nəzdində müvafiq ixtisaslar üzrə Müdafiə Şurası yaradılıb. Şuranın fəaliyyəti dövründə həm muxtar respublikada yaşayan, həm də Azərbaycanın müxtəlif regionlarından çox sayda dissertant tarix, arxeologiya və iqtisadiyyat elmləri üzrə dissertasiyalar müdafiə edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi... yaranmış şəraitdən məqsədyönlü istifadə etməli, elmi araşdırmalar nəticəli olmalı, onların praktikada tətbiqi işinə diqqət artırılmalı, muxtar respublikanın tarixi, arxeologiyası, təbii sərvətləri və onlardan istifadə imkanları barədə tədqiqatlar davam etdirilməli, fundamental nəşrlər hazırlanmalıdır".***

AMEA Naxçıvan Bölməsi ABŞ, Fransa, Polşa, Türkiyə, Rusiya, İran, Gürcüstan və Qazaxıstan elm və təhsil müəssisələri ilə sıx elmi əlaqələr çərçivəsində bir çox naliyyətlərə imza atıb. Bölmənin əməkdaşları Oksford, Dallas, Kyoto, İslamabad, Berlin, Hamburq, Turin, Zaqreb, Qahirə, Budapeşt, Vyana və digər şəhərlərdə keçirilən 439 beynəlxalq elmi simpozium və konfranslarda çıxış ediblər.

Bölmənin sədri, akademik İsmayıl Hacıyev onu da bildirir ki, 2 cilddə "Naxçıvan Ensiklopediyası", "Naxçıvan Abidələri Ensiklopediyası", "Naxçıvan tarixi atlası", 3 cilddə "Naxçıvan tarixi", "Naxçıvan teatrının salnaməsi", 3 cilddə "Naxçıvan folkloru antologiyası", "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlas"ı, "Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri: hazırkı vəziyyət və perspektivlər", 2 cilddə Naxçıvan Muxtar Respublikasının "Qırmızı kitabı", "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası", "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri", 2 cilddə "Naxçıvan coğrafiyası" kimi fundamental nəşrlər işıq üzü görüb. Bölmənin əməkdaşlarının tərcümə etdikləri Nemətullah Naxçıvaninin təfsirinin I və II cildləri nəşr olunub. Ümumiyyətlə, bölmənin fəaliyyəti dövründə əməkdaşların 208 monoqrafiyası, 200 kitabı, 26 metodik vəsaiti, 8034 elmi məqaləsi və konfrans materialı, 209 tezisi, 21 xəritəsi çap edilib. Əsərlərdən 18 monoqrafiya, 18 kitab, 1709 məqalə və konfrans materialı, 67 tezis xaricdə nəşr olunub. Elmi məqalələrdən 202-si yüksək nüfuzlu impakt faktorlu jurnallarda dərc edilib.

Təbii sərvətlərlə zəngin olan muxtar diyarımızda bu sərvətlərin tədqiqi və tətbiqi də diqqətdə saxlanılır. Bunun nəticəsidir ki,"Şorsu" palçığının kimyəvi tərkibi analiz edilərək onun qatılaşdırılma, qurudulma metodikası, texniki şərtləri hazırlanıb, iki növdə müalicəvi dərman məhsulları qablaşdırılaraq (yaş şəkildə və quru toz halında) istifadəyə verilib. Həmçinin Darıdağ termal suyunun quru qalığını almaq üçün şərait yaradılıb və məhsul istehsalına başlanıb. Qabıllı gili əsasında yuyucu toz hazırlanıb.

İnstitutda aparılan son tətbiqyönümlü tədqiqatlar nəticəsində Biləv zəy süxurundan 3 birləşmə alınıb.

Naxçıvan Muxtar Respublikasının florasında müasir səhiyyədə və xalq təbabətində istifadə olunan farmakopeyaya daxil edilən 132 rəsmi (ofisial) dərman bitkisinin olduğu müəyyən edilib. Steril şəraitdə qurudulmuş dərman bitkilərindən ibarət qarışıqların hazırlanması üçün sertifikatlar alınıb.

Beynəlxalq Seleksiya Mərkəzi İCRADA-dan alınmış arpa nümunələrindən yerli şəraitə uyğun, quraqlığa, şaxtaya, yatmaya və xəstəliklərə davamlılığı, yüksək məhsuldarlığına və dənin keyfiyyətinə görə kütləvi seçmə aparmaqla arpanın "Qılçıqlı-85" və noxudun "Qaraca-85" sortları yaradılaraq Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Seleksiya Nailiyyətlərinin Sınağı və Mühafizəsi üzrə Dövlət Komissiyasına təqdim edilib. Sortlar respublikanın 8 rayonunda sınaqdan keçirilərək müsbət və yüksək göstəricilərinə görə özünü doğruldub. Həmin sortların rayonlaşdırılması qərarlaşdırılaraq patent və sertifikat verilib.

"Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" müvafiq Sərəncama əsasən bölmə əməkdaşları tərəfindən Naxçıvan Muxtar Respublikası ərazisində 1200-dən çox tarix və mədəniyyət abidəsi aşkar olunaraq pasportlaşdırılıb. Bu abidələrdən 57-si dünya, 485-i isə ölkə əhəmiyyətli tarix və mədəniyyət abidəsidir.

İsmayıl Hacıyevin dediyinə görə, bölmənin fəaliyyəti dövründə əməkdaşlardan 3 nəfər "Əməkdar elm xadimi", 1 nəfər "Əməkdar müəllim", 1 nəfər "Əməkdar jurnalist" fəxri adına, 7 nəfər "Tərəqqi" medalına, 3 nəfər Prezident mükafatına, 1 nəfər isə Prezident təqaüdünə layiq görülüb. Əməkdaşlardan 3-ü Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Qızıl medal"ı, biri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri fərmanı ilə, ikisi isə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif edilib.

Onu da qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən "Naxçıvan tarixi" çoxcildliyi, akademik İsmayıl Hacıyevin "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" monoqrafiyası elm sahəsi üzrə Naxçıvan Muxtar Respublika mükafatına, həmçinin AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin "Tarixi mənbələrdə Nuh Peyğəmbər", AMEA-nın müxbir üzvü, mərhum Qadir Qədirzadənin "Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı" kitabları Ali Məclis Sədrinin mükafatına layiq görülüb.



"Bu gün Azərbaycanda elmin inkişafı ilə bağlı qarşımızda duran ən mühüm vəzifələr optimal təşkilati formaların tapılması, prioritet elmi-texniki istiqamətlərin müəyyənləşdirilməsi və məqsədyönlü islahat işlərinin aparılmasıdır", – deyən bölmə sədri bildirdi ki, yerli elmi tədqiqatların dünya elminə inteqrasiyası elmin rentabelliyi, effektivliyi, habelə elmin maliyyələşdirilməsinin daha səmərəli formalarından istifadə olunması baxımından böyük əhəmiyyət daşıyır. Elmin effektivliyinin artırılması, beynəlxalq arenaya inteqrasiya kimi məsələlər, xüsusilə gənc tədqiqatçıları düşündürməlidir.

Bölmədə fəaliyyət göstərən Gənc Alim və Mütəxəssislər Şurası bir çox uğurlara imza atıb, elmin inkişafında əhəmiyyətli istiqamətlərdə layihələr həyata keçirilib. Şuranın layihəsi çərçivəsində ilk dəfə xaricdə "Naxçıvandan Konyaya bir körpü – Nemətullah Naxçıvani" adlı beynəlxalq konfrans təşkil olunub.

Bölmədə ölkəşünaslıq və diyarşünaslıq baxımından mühüm əhəmiyyətə malik çoxsaylı beynəlxalq konfrans və simpoziumların keçirilməsi də davamlı xarakter alıb.

Naxçıvan Muxtar Respublikasında elmə göstərilən qayğı bu sahəni inkişaf etdirməklə bərabər, beynəlxalq əhəmiyyətə və xüsusi geostrateji imicə malik olan diyarımızın hərtərəfli öyrənilməsinə də geniş imkanlar açıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov elmin inkişafının əhəmiyyətindən danışaraq deyib: ***"Elmi tədqiqatlar o vaxt ideyadan əməli işə keçir ki, onun reallaşmasına şərait yaradılsın. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında elm infrastrukturu tamamilə yenidən qurulub. Azərbaycan elmi qabaqcıl dünya təcrübəsi əsas götürülərək inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikasında da elmin iqtisadiyyata tətbiqi dayanıqlı inkişafın əsas şərtidir. Artıq muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar ciddi elmi-nəzəri əsaslara söykənir".***

*Qazanılan elmi nailiyyətlər belə deməyə əsas verir ki, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində gələcəkdə də bütün bu tələblərə cavab verəcək elmi fəaliyyət uğurla davam etdiriləcək, muxtar diyarımızın tarixi, ədəbiyyatı, mədəniyyəti, milli-mənəvi dəyərləri, yeraltı və yerüstü sərvətləri daha əhatəli tədqiq ediləcək.*

**Nərgiz İSMAYILOVA**
***filologiya üzrə fəlsəfə doktoru***

## Vəzifələr icra edilir

*Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması, qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrası iyul ayında da diqqətdə saxlanılmış, müxtəlif tədbir və müsabiqələr təşkil olunmuşdur.*

Ötən ay aztəminatlı ailədən olan 5 qadının peşə kurslarına cəlb olunması, məşğulluq probleminin aradan qaldırılması ilə bağlı müraciət etmiş 5 qadının isə işlə təmin olunması üçün məlumatları aidiyyəti orqanlara göndərilmişdir.

Culfa rayonunun Yaycı kəndində "Reproduktiv sağlamlıq və ailə dəyərləri mövzusunda tədbir keçirilmiş, maarifləndirici broşürlər paylanılmışdır. Şərur rayonunun Diyadin kəndində yaşayan aztəminatlı Hüseynovlar ailəsinə, Culfa rayonunda yaşayan, valideyn himayəsindən məhrum 5 uşağa baş çəkilmiş, onların məişət şəraitləri, sağlamlıqları, təhsili ilə maraqlanılmış, ehtiyaclarına uyğun köməklik göstərilmişdir. Sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı işlər görülmüş, 3 uşaq məktəbəqədər təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə cəlb olunmuşdur.

Hesabat ayında "Mediada ailə, qadın və uşaq məsələləri" mövzusunda tədbir keçirilmiş, "Ailə dəyərlərimiz film və fotolarda" mövzusunda IV muxtar respublika yaradıcılıq müsabiqəsinin qalibləri mükafatlandırılmışdır.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının proqram təminatında təkmilləşmələr aparılmış, bununla bağlı tədbir keçirilmiş, yeni proqram istifadəçilərə təqdim olunmuşdur.

Ağbulaq İstirahət Mərkəzində aztəminatlı ailələrdən olan, qaçqın və məcburi köçkün, şəhid ailələrinin uşaqları, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş 45 uşağın iştirakı ilə "Yay məktəbi" təşkil olunmuş, bu kateqoriyadan olan uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə Naxçıvan Dövlət Kukla Teatrında tamaşa, Naxçıvan Dövlət Film Fondunda isə filmlər göstərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Müasir Azərbaycan dövlətinin banisi ulu öndər Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi ədalətli cəmiyyətin formalaşdırılması, idarəçilikdə demokratik ənənələrin bərqərar olması üçün misilsiz xidmətlər göstərib. Cəmiyyət həyatının müxtəlif sahələrində haqq-ədalət prinsipinin qorunmasına çalışan ulu öndər bu yolla dövlətlə xalq arasında möhkəm mənəvi, siyasi və hüquqi bağlantıya, qarşılıqlı etimada nail olmağı mümkün hesab edərək bunu böyük əzmlə reallaşdırıb.*

# Məhkəmə-hüquq islahatları keyfiyyətcə yeni mərhələdə



Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev əsası ümummilli lider tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatlarını yeni dövrün tələblərinə uyğun davam etdirir. Məhkəmələrin insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, ədalət mühakiməsinin tam qanunamüvafiq şəkildə həyata keçirildiyi ali instansiyaya çevrilməsinə və cəmiyyətdə yüksək etimad qazanmasına çalışan dövlət başçısı bu sahədə beynəlxalq təcrübənin mənimsənilməsi təşəbbüskarı kimi çıxış edir. Ötən müddətdə respublikada uğurla həyata keçirilən məhkəmə-hüquq islahatları insanpərvərlik, humanizm, şəxsiyyətə hörmət, vətəndaşa həssas münasibət kimi ali dəyərlərə söykənib.

Dövlət başçısının ardıcıl və sistemli olaraq həyata keçirdiyi islahatların uğurlu nəticələri göz önündədir. Bu islahatlar həm də ölkədə qanunçuluğun, insan hüquq və azadlıqlarının etibarlı təminatına xidmət edir. Ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı da bunu təsdiqləyən faktdır. Adıçəkilən fərman, ilk növbədə, ölkədə həyata keçirilən iqtisadi, sosial islahatların, köklü transformasiya proseslərinin daha uğurlu nəticələr verməsi üçün hüquqi təminat yaradılması və ölkənin hüquq, ədalət mühakiməsi sisteminin meydana çıxa biləcək çağırışlara adekvat olması baxımından mühüm əhəmiyyətə malikdir. Bu fərman indiyə qədər məhkəmə-hüquq sistemində aparılan islahatları dərinləşdirən, eyni zamanda mütərəqqi dəyişikliklər, islahatların yeni mərhələsini şərtləndirən bütöv islahat konsepsiyası, "yol xəritəsidir".

Konseptual olaraq bu fərmanda, bütövlükdə, ədalət mühakiməsi sisteminə baxışın dəyişilməsi nəzərdə tutulur. Müasir dövrdə məhkəmələrin texniki institut kimi nəzərdən keçirilməsi yanlış olardı. Məhkəmələrin fəaliyyəti, bütövlükdə, cəmiyyət miqyasında təsirə malikdir və xeyli dərəcədə mühitin, ab-havanın formalaşmasına təsir göstərir.

Sənəddə vurğulanır ki, ölkəmizin davamlı tərəqqisinin təmin olunması üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir.

Ölkə başçısının imzaladığı fərman məhkəmə-hüquq islahatlarında yeni mərhələ adlana bilər. Fərman iqtisadi artımda mühüm əhəmiyyət daşıyan sahibkarlığın inkişafı, məhkəməyə müraciət imkanlarının daha da genişləndirilməsi, məhkəmə fəaliyyətinə müdaxilələrin qarşısının alınması, icraatın səmərəliliyinin artırılması və süründürməçiliyin aradan qaldırılması, hakimlərin iş yükünün azaldılması və digər problemlərin həlli istiqamətində qarşıya mühüm vəzifələr qoyub.

Ötən müddət ərzində fərmanda əksini tapan tapşırıq və tövsiyələrin həyata keçirilməsi məqsədilə intensiv iş aparılıb, statistik məlumatlar təhlil edilərək ümumiləşdirilib, habelə qabaqcıl beynəlxalq təcrübə öyrənilib. Azərbaycan Respublikasının Prezidenti islahatlarının institusional komponentini əhatə edən ilk qanunvericilik aktları paketini 2019-cu il iyulun 20-də imzalayıb.

Həmin layihələr, əsasən, sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə baxacaq yeni ixtisaslaşmış məhkəmələrin yaradılması, məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması, məhkəmə fəaliyyətinin elektronlaşdırılması, hakimlərin və məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, məhkəmə ekspertizasının və məhkəmə qərarlarının icrasının səmərəliliyinin artırılması və digər məsələlərlə bağlıdır.

Artıq bəzi qanun layihələri Milli Məclis tərəfindən qəbul edilib, sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması məqsədilə ölkəmizdə yeni ixtisaslaşmış məhkəmələrin yaradılması təsbit olunub, hakimlərin təminatı əhəmiyyətli dərəcədə artırılıb, məhkəmə fəaliyyətinin səmərəliliyinin yaxşılaşdırılmasına xidmət edən digər mühüm məsələlər həllini tapıb.

Məhkəmələrə əlçatanlığın yaxşılaşdırılması dövlətimizin başçısının daim diqqət mərkəzində olub. Bu problemi həll etmək və məhkəmələri insanlara, hüquqi şəxslərə yaxınlaşdırmaq üçün son dövrlər xeyli iş görülüb, məhkəmə sisteminin quruluşunda önəmli dəyişikliklər edilib. Yeni qanunvericiliyə uyğun olaraq sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və bu sahədə işlərə daha çevik baxılmasının təmin edilməsi məqsədilə yeni ixtisaslaşmış məhkəmələr – kommersiya və ayrıca inzibati məhkəmələr təsbit olunub. Azərbaycan Prezidentinin 2019-cu il 19 iyul tarixli Sərəncamı ilə mövcud inzibati-iqtisadi məhkəmələr ləğv edilməklə Naxçıvan Muxtar Respublikasında, Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəkidə yeni Kommersiya və ayrıca İnzibati məhkəmələr yaradılıb. Hazırda dövlət başçısının tövsiyə və tapşırıqlarına uyğun olaraq həmin məhkəmələrin yurisdiksiyasının müəyyən edilməsi, müvafiq bina, avadanlıq, digər təşkilati-texniki vasitələrlə təmin edilməsi, məhkəmə aparatlarının formalaşdırılması üzrə tədbirlər görülür.

Yeni məhkəmələrdə konkret sahədə dərin hüquqi bilik və təcrübəsi olan hakimlərin fəaliyyət göstərməsi nəzərdə tutulur. Bu da işlərə daha peşəkar baxılması, onların dolğun, hərtərəfli araşdırılması məqsədi daşıyır. Sahibkarlıq fəaliyyəti ilə əlaqədar olan mülki mübahisələrə yeni yaradılan kommersiya məhkəmələri, sahibkarların bütün dövlət qurumları, inzibati orqanlar ilə mübahisələrinə, o cümlədən vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə isə inzibati məhkəmələr baxacaqdır.

2020-ci il yanvarın 1-dən fəaliyyətə başlayacaq kommersiya və inzibati məhkəmələr bu sahədə məhkəmə statistikasının təhlil edilməsində və məhkəmə təcrübəsinin öyrənilməsində də mühüm rol oynayacaq.

Yeni qanunvericiliyə uyğun olaraq sahibkarlıqla bağlı mübahisələr üzrə ixtisaslaşdırılmış məhkəmələrin yaradılması, habelə ali və apelyasiya məhkəmələrində müvafiq kollegiyaların təsis edilməsi, məhkəmə aidiyyəti üzrə mübahisələrin həllinin daha təkmil, yeni mexanizminin yaradılması ölkəmizdə sahibkarlığın inkişafına, biznes mühitinin yaxşılaşmasına, məhkəmələrdə süründürməçilik hallarının qarşısının alınmasına əlavə təkan olacaqdır.

Məhkəmə sisteminin səmərəliliyi, sözsüz ki, hakimlərin fəaliyyətindən çox asılıdır. Bu məqsədlə fərmanda, ilk növbədə, bütün məhkəmələrin sədrlərinə və hakimlərə tövsiyə edilib ki, məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmləndirilməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi və ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etsinlər.

Şübhəsiz ki, məhkəmə sisteminin daha səmərəli fəaliyyət göstərməsi, hakimlərin obyektivliyinin, qərəzsizliyinin, müstəqilliyinin təmin olunması üçün onların maddi təminatı da mühüm əhəmiyyət kəsb edir. Məhz ona görə fərmana uyğun olaraq "Məhkəmələr və hakimlər haqqında" Qanuna dəyişikliklər edilərək hakimlərin maddi təminatı yaxşılaşdırılıb. Eyni zamanda məhkəmələrdə baxılan işlər üzrə dövlət rüsumunun dərəcələrinin verilən iddiaların qiymətinə uyğun diferensiasiyası və həmin rüsumların müəyyən hissəsinin məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə də yönəldilməsi üzrə müvafiq layihələr hazırlanıb.

Fərmanda qarşıya qoyulmuş məsələlərin icrası üzrə, həmçinin hakimlərin və məhkəmə sədrlərinin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi prosedurlarında şəffaflığın daha da artırılması, bu sahədə tətbiq edilən meyarların təkmilləşdirilməsi məqsədilə hakimlərin fəaliyyətinin qiymətləndirilməsi metodologiyası, habelə məhkəmələrdə işin düzgün və səmərəli təşkilinə, etik davranış və digər məsələlər üzrə peşəkar monitorinqlərin aparılmasına dair qaydalar hazırlanıb.

Prezidentin məhkəmə islahatlarının dərinləşdirilməsi barədə fərmanı ilə hakim ştatlarının daha 200 vahid artırılması bu baxımdan xüsusi önəm daşıyır. Bununla əlaqədar hakimliyə namizədlərin seçimində çevikliyin artırılması, habelə namizədlər üçün daha şəffaf və əlverişli şəraitin yaradılması məqsədilə Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin seçilməsi qaydalarında dəyişikliklər edilib. Hakimlərin Seçki Komitəsində isə namizədlərin sənəd qəbulunun davamlı olması, test imtahanının Dövlət İmtahan Mərkəzi tərəfindən müasir üsullarla, hər bir namizəd üçün fərdi kompüterlər vasitəsilə və 200-250 nəfərlik qruplarla keçirilməsi barədə qərar qəbul olunub.

Digər mühüm yenilik isə cari ildə "Mediasiya haqqında" Qanunun qəbul edilməsi, bununla da mülki xarakterli mübahisələrin məhkəmədənkənar həlli mexanizmlərinin yaradılmasıdır. Bu institutun müstəsna əhəmiyyətini nəzərə alan ölkə Prezidentinin imzaladığı fərmanda Ədliyyə Nazirliyinə mediasiya prosesinin tətbiqi ilə bağlı maarifləndirmə və təşviqat tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulub. Fərmana əsasən, həmçinin xarici dövlətlərin qabaqcıl təcrübəsi nəzərə alınmaqla ölkəmizdə səmərəli beynəlxalq arbitraj prosedurlarının təşviqinə dair tədbirlər görülür.

Ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması, işlərə daha operativ baxılması və vətəndaş məmnunluğunun təmin olunması baxımından Azərbaycan Prezidentinin 2014-cü il 13 fevral tarixli Sərəncamı ilə yaradılmış "Elektron məhkəmə" informasiya sisteminin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarlarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edən "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə insanlar artıq məhkəməyə gəlmədən, elektron formada müraciət etmək imkanı qazanırlar. Hər bir kəs "şəxsi elektron kabinet"ə sahib olmaqla məhkəməyə sənədləri elektron formatda ötürə, məhkəmə işinin materialları ilə ətraflı tanış ola, proseslər barədə məhkəməyə gəlmədən xəbər tuta bilər. Eyni zamanda sistemin məhkəmə proseslərinin audioyazılışının aparılması, elektron sənəd dövriyyəsinin təşkili, yekun məhkəmə qərarlarının elektron dərci, müxtəlif meyarlar əsasında axtarış aparılması və digər məziyyətləri, sözsüz ki, hakimlərin də işinin asan və səmərəli təşkilinə öz real müsbət təsirini göstərir. Ötən dövrdə sistemin tətbiqi üzrə məhkəmələr zəruri infrastrukturla təchiz olunub. "Elektron məhkəmə"nin bir çox komponentləri, o cümlədən Məhkəmələrin Vahid Portalı, Məhkəmə Prosesi İştirakçısının Şəxsi Kabineti, Elektron İcra, Məhkəmə Qərarlarının Vahid Bazası və bir sıra alt sistem və modulları hazırda uğurla tətbiq olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dəstəyi ilə muxtar respublikada fəaliyyət göstərən məhkəmələrdə "Elektron məhkəmə" informasiya sisteminin tətbiqini təmin etmək üçün mövcud məhkəmələrin inzibati binalarında müvafiq infrastrukturun qurulması işinə 2015-ci ildən başlanılıb və hazırda bu sistem Naxçıvan Muxtar Respublikasının məhkəmələrində də tətbiq olunur. "Mütərəqqi Ədliyyə Xidmətləri və Müasir Məhkəmə İnfrastrukturu Layihəsi" çərçivəsində həyata keçirilən "Elektron məhkəmə" informasiya sisteminin tətbiq edilməsi üçün Naxçıvan Muxtar Respublikasının məhkəmələrinə yeni kompüterlər verilib, onlar sistemə inteqrasiya edilib, bütün iş otaqlarında IP telefonlar quraşdırılıb, məhkəmə zallarında proseslərin daha dəqiq və sürətlə protokollaşdırılmasına xidmət edən və audio-videoyazıları aparan "AZ-Femida" sistemi tətbiq edilməyə başlanılıb. Ümumilikdə, "elektron məhkəmə" informasiya sisteminin tətbiqi üçün bütün zəruri infrastruktur yaradılıb.

*Məhkəmə-hüquq islahatları, bütövlükdə, Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanında verilmiş tapşırıq və tövsiyələrə müvafiq olaraq vətəndaşların hüquqlarının məhkəmələrdə daha etibarlı müdafiəsini təmin etməklə məhkəmələrə etimadın və məhkəmə sisteminin nüfuzunun daha da yüksəldilməsinə səbəb olacaqdır. Aparılan islahatlar ədalət mühakiməsinin keyfiyyətini və səmərəliliyini artırmaqla, ümumilikdə, məhkəmə-hüquq sisteminin inkişafına mühüm təsir göstərəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

# Avtovağzal Kompleksində gömrük nəzarəti zonası yaradılıb



Məlumdur ki, bu vaxta qədər Bakı-Naxçıvan-Bakı avtobus marşrutundan istifadə edənlər müəyyən çətinliklərlə üzləşirdilər. Sərhədi keçən avtobuslar hər iki ölkənin gömrük postlarında, ümumilikdə, 4 dəfə gömrük nəzarətindən keçirilir, əl yükləri dəfələrlə yoxlanılırdı. Sərnişinlər gömrükləri keçərkən baqajlarını özləriylə bərabər daşımalı olurdular. Bu da vaxt itkisi ilə yanaşı, sərnişinlər üçün yorucu və narahat vəziyyət yaradırdı.

Dövlətimiz tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Bakı-Naxçıvan-Bakı marşrut xətti üzrə hərəkət edən sərnişin avtobuslarına tətbiq olunan gömrük nəzarəti tam sadələşdirilib. Sərnişinlərin rahatlığının və mənzilbaşına daha tez çatmalarının təmin edilməsi məqsədilə Naxçıvan şəhərindəki Avtovağzal Kompleksində gömrük nəzarəti zonası yaradılıb. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Avtovağzal Kompleksində müasir rentgen-nəzarət qurğusu quraşdırılıb və gömrük əməkdaşlarının fəaliyyəti təmin olunub. Bundan sonra Naxçıvandan Bakıya gedən avtobuslara gömrük nəzarəti Avtovağzal Kompleksində həyata keçiriləcək.

Sadələşdirilmiş gömrük nəzarəti qaydaları əsasında Naxçıvandan Bakıya hərəkət edən sərnişin avtobusu dünən səhər saatlarında ilk dəfə olaraq Naxçıvan şəhərindəki Avtovağzal Kompleksində gömrük yoxlamasından keçirilib. Sərnişinlərə məxsus əl yükləri müvafiq birkalarla təmin edildikdən sonra avtobusun yük yerinə yığılıb və nəqliyyat vasitəsi gömrük təminatı altında yola salınıb.

Avtobusla Bakıya getmək istəyən Ordubad və Culfa rayon sakinlərinin isə Naxçıvan şəhərindəki Avtovağzal Kompleksinə gəlmələrinə ehtiyac yoxdur, onların əl yükləri Culfa Gömrük Postunda gömrük nəzarətinə cəlb olunacaqdır.

Naxçıvan şəhərindəki Avtovağzal Kompleksində gömrük nəzarəti zonasının yaradılması əhali tərəfindən razılıqla qarşılanıb.

Avtobus sürücüləri və vətəndaşlar yaradılan şəraitə görə dövlətimizə minnətdarlıq ediblər.

Qeyd edək ki, Azərbaycan Respublikası və onun Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında bütün sahələrdə mövcud olan qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri gömrük münasibətlərinin də inkişafında özünü göstərir. İndi Azərbaycan tərəfdə gömrük nəzarətindən keçirilən avtobuslar İran ərazisində əlavə gömrük yoxlamasına cəlb edilmir. Beləliklə, avtobusların gömrük postlarından sürətli keçidi təmin olunur. Bu vaxta qədər İran İslam Respublikası üzərindən Naxçıvandan Bakıya hərəkət edən sərnişin avtobusları 12 saat yolda olurdularsa, indi bu müddət 8 saat təşkil edir.

Onu da vurğulamaq yerinə düşər ki, Culfa və Biləsuvar gömrük postlarının iş vaxtı 24 saata çatdırılıb, gecə vaxtı da Bakı-Naxçıvan-Bakı istiqaməti üzrə avtobus reyslərinin həyata keçirilməsi təmin olunub. Avtobuslardakı əl yüklərinin sərhəd-keçid məntəqələrində yoxlanma prosedurlarında edilən dəyişiklik və sadələşdirmə sərnişinlərin rahatlığının təmin olunmasına, gediş-gəlişin artmasına şərait yaradıb.

**Rahil TAHİRLİ**

Estafet

## Şərurumla qürur duyuram

*Yaşadığım bu torpaq Vətənin bir parçasıdır. Vətən qibləgahımızdır, Vətən qoynunda böyüyüb boya-başa çatdığımız anamızın isti qucağıdır. İnsan anasız da, atasız da yaşaya bilər, lakin Vətənsiz yaşaya bilməz. Vətəninə sonsuz sevgi, bağlılıq vətənpərvərlikdir. Vətən sevgisi sevgilərin alisi, ən müqəddəsidir.*



Mən bu gün ən xoşbəxt bir insanam. Çünki mənim doğulduğum torpaq dahilər yetirən, Naxçıvanın dilbər guşəsi, düşmənə sipər olan neçə-neçə oğulların doğulduğu bir torpaq, tarixi bir yer – Şərur şəhəridir. Orada doğulmuşam, orada boya-başa çatmışam. Kürçülü kənd tam orta məktəbini bitirib Naxçıvan Dövlət Universitetinə qəbul olunmuşam. Həftəsonları Şərura gedirəm. Deyə bilərəm ki, rayonun getmədiyim, görmədiyim kəndi yoxdur. Hər birinin özünəməxsus gözəllikləri var. Rəssam istəyir ki, kətana köçürə, bəstəkar istəyir ki, nəğmə qoşa. Şəninə şairlər yüzlərlə şeir yazıblar. Şair İbrahim Yusifoğlunun misraları yadıma düşür:

*Dədə Qorqud gəzən oğuz elimdir,*
*Uludur torpağı, daşı Şərurun.*
*Dili türkün dili – ana dilimdir,*
*Qədimdən qədimdir yaşı Şərurun.*

Şərur qədim yaşayış məntəqələrindən biridir. Azərbaycan folklor mədəniyyətinin beşiyi olan bu bölgədə xeyli abidə və görməli yerlər var. Yallıları dünyanı gəzib, insanları özünə məftun edib. Bunların hamısı mənim üçün çox əzizdir, bir tarixdir. Bu tarixi özündə yaşadan kəndlərdən biri Gümüşlü kəndidir. Dağlar qoynunda olan bu kənddə Gümüşgölü görmədən və onun gözəlliyinə heyran olmadan getmək mümkün deyil. Havasına, suyuna söz ola bilməz. İnsanları mehriban, qonaqpərvərdir. Vətənimin bu dilbər guşəsi haqqında 1984-cü ildə "Gümüşgöl əfsanəsi" adlı bədii film də çəkilib.

Rayonda Oğlanqala, Qalacıq, Govurqala, Qarasu qalası kimi tarix yadigarları var. Buradakı memarlıq abidələri sırasında orta əsrlərə aid Arpaçay üzərində körpü, bürclər, məscid və pirlər, karvansarayları xüsusi qeyd etmək istəyirəm. Rayon ərazisində xeyli arxeoloji abidələr bölgənin ulu tarixindən soraq verir. 1987-1990-cı illərdə Daş dövrünə aid Qazma mağaralarından maddi-mədəniyyət qalıqları – çaxmaqdaşı, əmək alətləri aşkar edilib.

Şərur torpağı ziyalı insanlar yetişdirən dahilər yurdudur. Neçə-neçə alim bu bölgədən pərvazlanıb. İndi onların səsi-sorağı ölkəmizin elm və təhsil ocaqlarından gəlir.

Şərurumun buz bulaqlarından içməmiş keçmək olmaz. Axura kəndində Axura bulağı, Tənənəm kəndində İsa bulağı, Şahbulaq kəndində Şapur bulağı ilboyu çağlayır.

Qədim tarixin yeni möcüzəsi Şərur – mənim kimliyim, mərdliyim, vicdanım Şərur!

Son iyirmi ildən artıq bir dövrdə Şərur çox güclü inkişaf mərhələsi keçib. Bu gün isə inkişafının yeni mərhələsindədir. Öz qədimliyini qorumaqla müasirliyə gedən bir yoldur Şərurum. Belə ki, yeni-yeni abadlıq işləri göz oxşayır. Məktəb, səhiyyə, mədəniyyət müəssisələri üçün yeni binalar inşa olunur, kənd və xidmət mərkəzləri istifadəyə verilir, yollar yenilənir, ilbəil yaşıllıq sahələri genişləndirilir. Elə orta təhsilimi başa vurduğum Kürçülü kəndi bunun ən bariz nümunəsidir. Kənd və xidmət mərkəzləri, şagirdlərin bilik qazanmasında böyük rol oynayan yenitipli məktəb binası, rayonun bütün bölgələrində həyata keçirilən kompleks quruculuq tədbirləri Şərurun kəndlərini müasirliyə qovuşdurub. Belə tədbirlər hazırda rayonun bir neçə kəndində davam etdirilir.

*Min büsat qurulur hər bucağında,*
*Güllər ətir saçır tər qucağında.*
*Ömrünün gəncləşən səhər çağında*
*Qəlblər ovsunlayır halı Şərurun.*

Qürur duyduğum Şərur hər keçən gün daha da gözəlləşməyə, göz-oxşayan yeniləşməyə doğru gedir.

**Günay İBRAHİMOVA**
***Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət müəllimliyi ixtisası üzrə II kurs tələbəsi***

## İdmanın kütləviliyinə nail olunur

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən iyul ayında gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların intellektual səviyyələrinin artırılması, dünyagörüşünün formalaşdırılması və idmanın kütləviliyinə nail olunması istiqamətində ardıcıl tədbirlər görülmüşdür.*

Hesabat ayında Ağbulaq İstirahət Mərkəzində Naxçıvan Dövlət Universiteti, Müəllimlər İnstitutu, "Naxçıvan" Universiteti tələbələrinin və Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının iştirakı ilə "Yay məktəbi" təşkil olunmuş, Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illik yubileyi ilə əlaqədar gənclər arasında fərdi "Xəmsə" intellektual oyunu, sağlamlıq imkanları məhdud uşaqlar arasında "Yurdumuzu tanıyaq" adlı əyləncəli bilik yarışması keçirilmişdir. 22 iyul – Milli Mətbuat Günü münasibətilə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin gənc əməkdaşları ilə görüş və onların mükafatlandırılması mərasimi təşkil olunmuşdur.

Ötən ay idman sahəsində kütləviliyin təmin olunması üçün bir sıra birinciliklər, yoldaşlıq görüşləri keçirilmiş, idmançılarımızın ölkə və beynəlxalq turnirlərdə iştirakı təmin edilmişdir. Ötən ay idmançılarımız yüksək nəticələr əldə edərək ölkə birinciliyində 3, beynəlxalq turnirdə 10 medal olmaqla, ümumilikdə, 13 medal qazanmışlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Seminarlar davam etdirilir

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Əmək müqavilələrinin bildirişi üzrə elektron informasiya sisteminin tətbiqinə dair Babək Rayon Təhsil Şöbəsində seminar keçirilib.

Seminarda Dövlət Əmək Müfəttişliyi Xidmətinin nümayəndələri tərəfindən elektron informasiya sisteminin tətbiqinə dair maarifləndirici söhbətlər aparılıb, həmçinin mövzu ətrafında slaydlar nümayiş etdirilib.

Sonda suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## İşaxtaran vətəndaşların nəzərinə !

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti işaxtaranları Naxçıvan Regional Peşə Tədris Mərkəzində aşpaz köməkçisi peşəsi üzrə kurs keçməyə dəvət edir. Kursun tədris müddəti 2 aydır.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 20 avqust 2019-cu il tarixədək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim etməlidirlər.

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi arayış.*

***Əlaqə telefonu: 545-32-33***

## Yol hərəkəti qaydalarına riayət etmək hər kəsin borcudur

*Son illərdə muxtar respublikamızda həyata keçirilən tədbirlər sırasında yol infrastrukturunun müasir tələblər səviyyəsində qurulması mühüm yer tutur. Bunun ifadəsidir ki, diyarımızın bütün bölgələrində, hətta ucqar yaşayış məntəqələrində belə, yollar yenidən qurulub. Bu isə muxtar respublikamızın dinamik inkişafının göstəricisi olmaqla, həm də piyadalara, sürücülərə, nəticə etibarilə, insanlara göstərilən qayğının ifadəsidir. Danılmaz faktdır ki, inkişafda olan yerlərdə əhali artdıqca şəxsi avtomobillərin sayı da çoxalır və nəqliyyatda hərəkətin intensivliyi də artır. Ona görə də muxtar respublikamızın yollarında müxtəlif nişanlar qoyulub, piyada keçidləri müəyyənləşdirilib. Görülən bütün bu işlər sakinlərin rahat hərəkətinə xidmət etsə də, müəyyən olunmuş yol hərəkəti qaydaları gözlənilməsə, heç də rahat və təhlükəsiz şəkildə hərəkətimizi təmin edə bilmərik.*

Yol hərəkəti qaydalarına əməl etmək üçün, ilk növbədə, onları bilmək vacibdir. Ancaq hələ də bu qaydaları pozanlar az deyil. Bəzi insanlar, həqiqətən də, yol hərəkəti qaydalarını bilmədiyi üçün, bəziləri isə bilərəkdən pozurlar. Bilərəkdən qaydaları pozan insanların dilində isə eyni bəhanə var: tələsirəm. Unutmaq olmaz ki, yol hərəkəti qaydasını pozmaqla təkcə öz həyatını deyil, həm də bir neçə insanın həyatını təhlükəyə atmış oluruq. Mənzilimizə bir neçə dəqiqə tez çatmaq üçün qaydaları pozmağımız bizi öz mənzilimizə yox, son mənzilimizə çatdıra bilər.

Mövzu ilə bağlı daha ətraflı məlumat almaq üçün Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Təbliğat üzrə baş inspektoru, polis baş leytenantı Ayaz İsmayılovla həmsöhbət olduq.

Müsahibim diqqətə çatdırdı ki, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 40-cı maddəsində piyadaların da vəzifələri nəzərdə tutulub. Qanunda yolda piyadanın istiqamətinin tənzimlənməsindən tutmuş hər hansı pozuntuya görə tətbiq edilən cəriməyədək hər şey öz əksini tapıb. Sözügedən qanun və qaydalara ümumi nəzər yetirək. Piyadalar səki ilə, piyada zolağı və ya yolun çiyni ilə hərəkət etməlidirlər. Yolu piyada keçidlərindən və piyada zolaqlarından istifadə etməklə keçmək lazımdır. Yaşayış məntəqələrindən kənarda yolun hərəkət hissəsi ilə hərəkət etdikdə nəqliyyat vasitələrinin hərəkəti istiqamətinə qarşı getməliyik. Hərəkətin nizamlandığı yerlərdə nizamlayıcının və ya piyada işıqforunun, olmadığı halda isə nəqliyyat işıqforunun işarəsi əsas tutulmalıdır. Piyada yolun hərəkət hissəsində zərurət olmadan ləngiməməli və dayanmamalıdır. Piyadalar sutkanın qaranlıq vaxtı yolun işıqlanmayan hissələrində yalnız görünüş dairəsində nəqliyyat vasitəsi olmadıqda keçməlidirlər. Piyada nizamlanmayan piyada keçidlərində yolun hərəkət hissəsinə yalnız yaxınlaşmaqda olan nəqliyyat vasitələrinədək məsafəni, onların sürətini qiymətləndirdikdən



və yolu keçməyin onlar üçün təhlükəsiz olacağını yəqin etdikdən sonra çıxa bilər. Keçidi başa çatdıra bilməmiş piyadalar nəqliyyat vasitələrinin əks-istiqamətli hərəkətlərini ayıran xəttin üstündə dayanıb gözləməlidirlər. Onlar yalnız hərəkətin təhlükəsizliyinə əmin olduqdan sonra və işıqforun siqnalını nəzərə almaqla yolu keçməyə davam edə bilərlər.

Təmsil etdiyi qurumun bu istiqamətdə həyata keçirdiyi tədbirlər barədə ətraflı məlumat verən Ayaz İsmayılov onu da diqqətə çatdırdı ki, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsi olaraq yol polisi əməkdaşlarının hərəkətin təhlükəsizliyi tədbirlərinin təbliği sahəsində rolu və funksiyası, yol hərəkəti ilə bağlı insanların həyat və sağlamlıqlarının qorunması, xüsusilə uşaqlarla bağlı yol-nəqliyyat hadisələrinin qarşısının alınması üzrə maarifləndirici söhbətlərə geniş yer verilir. Mütəmadi olaraq ümumtəhsil məktəblərində piyadaların vəzifələri, piyada keçidlərinin növləri və keçilmə qaydaları, yol ayrıclarının keçilmə qaydası onlara praktik şəkildə başa salınır. Naxçıvan şəhər 1, 17, 14, 8 nömrəli tam orta məktəblərdə üçüncü və dördüncü sinif şagirdləri arasında "Yol hərəkəti qaydaları və mən" adlı televiktorina keçirilib. Bundan əlavə, Naxçıvan şəhərinin küçə və yollarında Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu ilə birlikdə "Diqqət, piyada!" adlı maarifləndirici aksiyalar keçirilir və əhaliyə idarə tərəfindən hazırlanmış yol hərəkəti qaydalarının əks olunduğu bukletlər paylanılır. Tədbirlər təkcə piyadalar arasında yox, sürücülər arasında da keçirilir ki, piyadaların hərəkəti zamanı sürücülər də yol hərəkəti qaydalarını pozmasınlar.

Müsahibim təəssüflə onu da bildirdi ki, aparılan təbliğat işlərinə baxmayaraq, hələ də yol hərəkəti qaydalarına əməl etməyən piyadalarımız var. Bu halların aradan qaldırılması üçün sakinlərin də diqqət və tələbkarlığı lazımdır ki, qaydanı pozan şəxs qınansın və səhvi başa salınsın. Əgər sürücü və piyadalar üzərlərinə düşən vəzifələri yerinə yetirsələr, həm piyadaların, həm də sürücülərin nəqliyyatda rahat hərəkəti təmin olunar və baş verə biləcək bədbəxt hadisələrin qarşısı alınar.

✍ **Pərviz HACILI**

Yeni nəşrlər

## "Adı və dadı ilə tanınan Naxçıvan göycəsi" adlı monoqrafiya işıq üzü görüb

*AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun elmi işçisi, aqrar elmlər doktoru Varis Quliyevin "Adı və dadı ilə tanınan Naxçıvan göycəsi" adlı monoqrafiyası işıq üzü görüb.*




Nəfis tərtibatda çap edilən monoqrafiyada Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin inkişaf tarixindən, müasir vəziyyətindən, bu sahəyə göstərilən dövlət dəstəyindən və bunun nəticəsində qazanılan böyük uğurlardan ətraflı bəhs olunur.

Elmi əsərdə ənənəvi olaraq hər il Naxçıvanda keçirilən göycə festivallarının əhəmiyyəti vurğulanıb, Naxçıvan göycəsi sortunun pomoloji təsviri, aqrobioloji xüsusiyyətləri, təbii variasiyaları, seleksiya yolu ilə alınan yeni formaları, becərilmə aqrotexnikası və çoxaldılma üsulları oxucuların diqqətinə çatdırılıb. Yeni nəşrdə alça növünün biomüxtəlifliyi, göycə meyvələrindən hazırlanan müxtəlif çeşidli qida məhsulları haqqında elmi məlumatlara da geniş yer verilib. Həmçinin Naxçıvan göycəsinin genetik xüsusiyyətlərinə dair aparılan elmi araşdırmalar, əldə olunmuş nəticələr və əməli təkliflər qeyd edilib, sortun iqtisadi səmərəliliyi müəyyənləşdirilib.

Monoqrafiya aqronomlar, kənd təsərrüfatı mütəxəssisləri, fermerlər, ailə təsərrüfatı başçıları, həmçinin tələbə və magistrantlar üçün nəzərdə tutulub. 98 səhifədən və illüstrativ şəkillərdən ibarət olan kitab kənd təsərrüfatı sahəsi ilə maraqlanan hər kəs üçün faydalı məlumatlarla zəngindir.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 531